*Bir çox alimlərə Azərbaycan dahi Landaunun vətəni kimi məlumdur. Konfransın yüksək səviyyədə keçrildiyini və müasir elmin bir çox istiqamətlərində Azərbaycan alıimlərinin uğurlarını qeyd etməkdən çox məmnunam. İqtisadi yüksəliş dövründə dövlətin diqqətini, elmin tərəqqisi naminə böyük vəsait ayırdığını da qeyd etmək çox xoşdur. Mənə elə gəlir ki, bu konfrans azərbaycanlı alimlər üçün yeni nailiyyətlər əldə etməyə stimul olacaq.*



PROFESSOR
# Katsuaki Sato
YAPONİYA

Yaponiyalı qonağımızın Bakı şəhəri və "Leyli Məcnun" tamaşasına həsr etdiyi şəkillərlə siz də tanış olun. İnanırıq ki, səfər kitabçasında tələsik çəkilmiş bu şəkillər sizdə də xoş əhval-ruhiyyə yaradacaq.





*Bakıya artıq üçüncü gəlişimdir. Buna baxmayaraq, bu dəfəki səfərim zamanı özüm üçün bir çox yeniliklər kəşf etdim. Bu, yalnız elm sahəsinə deyil, həm də Azərbaycan mədəniyyətinə aiddir. Konfrans təşkilatçıları qonaqların şəhərin maraqlı yerləri, tarixi və memarlığı ilə tanış olması, onun aurasını hiss etmələri üçün imkanın yaradılmasına lazımi diqqət ayırıblar. Məhz buna görə təşkilatçılara dərin minnətdarlığımı bildirmək istəyirəm.*

PROFESSOR
## Susan Schorr
ALMANIYA







*Burada baş verən hər şey mənim üçün maraqlıdır və diqqətlə həmkarlarımın məruzələrinə qulaq asıram. ICTMC konfransı müasir elmdə baş verən son uğurlar barəsində öyrənmək imkanıdır. Mənə gəlincə, elmi kəşflər indiki halda coğrafı kəşflərlə kəsişir. Bakı Şərq və Avropa ənənənlərinin sintezi olan maraqlı mədəniyyətə malik çox gözəl bir şəhərdir. Və mən bura yenə də gəlmək istərdim.*

PROFESSOR

# Daniel Lincot

FRANSA

